2026

# YERİN MƏSAFƏDƏN MÜŞAHİDƏSİ ÜZRƏ MÜSABİQƏDƏ İŞTİRAK QAYDALARI


## CİS MƏRKƏZİ

## AZƏRBAYCAN RESPUBLİKASININ KOSMİK AGENTLİYİ (AZƏRKOSMOS)

Üzeyir Hacıbəyli küçəsi 72, Bakı, Azərbaycan, AZ1000

# MÜNDƏRİCAT


1. **Ümumi müddəalar ..... 2**
2. **Təşkilatçı ..... 2**
3. **Əsas anlayışlar ..... 2**
4. **İştirak hüququ ..... 3**
5. **Qeydiyyat və seçim ..... 3**
6. **Peyk məlumatlarının təqdim edilməsi və istifadəsi ..... 4**
7. **Qadağalar ..... 4**
8. **Layihənin hazırlanması və təqdim edilməsi ..... 5**
9. **Qiymətləndirmə ..... 5**
10. **Mükafatlandırma ..... 5**
11. **Əqli mülkiyyət ..... 6**
12. **Fərdi məlumatların qorunması ..... 6**
13. **Məxfilik və məsuliyyət ..... 7**
14. **Yekun müddəalar ..... 7**
15. **Əlaqə ..... 7**

## 1. Ümumi müddəalar

1.1. Bu İştirak Qaydaları Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos) publik hüquqi şəxsi (bundan sonra — Təşkilatçı) tərəfindən təşkil olunan "Yerin məsafədən müşahidəsi üzrə müsabiqə"nin (bundan sonra — Müsabiqə) keçirilməsi, iştirak şərtləri, hüquq və öhdəlikləri müəyyən edir.

1.2. Müsabiqənin əsas məqsədi peyk məlumatlarının ölkə daxilində tətbiqinin genişləndirilməsi, Yer səthinin məsafədən müşahidəsi xidmətlərinin inkişafının təşviqi, innovativ tədqiqat layihələrinin dəstəklənməsi və gənc mütəxəssislərin bu sahəyə cəlb olunmasıdır.

1.3. 2026-cı il üzrə Müsabiqə şəhərsalma və memarlıq mövzusuna həsr olunur.

1.4. Bu Qaydalar Müsabiqədə iştirak edən bütün şəxslər üçün məcburidir.

## 2. Təşkilatçı

2.1. Müsabiqənin təşkilatçısı "Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos)" publik hüquqi şəxsidir.

2.2. Təşkilatçı aşağıdakı hüquqlara malikdir:

- Müsabiqənin keçirilməsi qaydalarını və qiymətləndirmə meyarlarını müəyyən etmək və tətbiq etmək;
- Zərurət yarandıqda bu Qaydalara dəyişiklik etmək;
- Müsabiqəni dayandırmaq və ya ləğv etmək;
- İştirakçıdan əlavə məlumat, sənəd və izahat tələb etmək;
- Qaydaların pozulması hallarında iştirakçının iştirakını dayandırmaq.

## 3. Əsas anlayışlar

3.1. Bu Qaydalarda istifadə olunan anlayışlar aşağıdakı mənanı ifadə edir:

**Məhsul** — Azərkosmos tərəfindən təqdim olunan peyk təsviri və/və ya radar məhsulu (məlumatı).

**VAP** — Məhsul əsasında texniki emal və/və ya əlavə məlumat inteqrasiyası yolu ilə yaradılmış məhsul.

**Törəmə məhsul** — Məhsuldan istifadə etməklə yaradılan, lakin ilkin təsviri məlumatların (piksel səviyyəsində) bərpası mümkün olmayan yeni informasiya məhsulu.

İştirakçı — Müsabiqədə iştirak üçün qeydiyyatdan keçmiş fiziki şəxs və ya layihə komandası.

## 4. İştirak hüququ

4.1. Müsabiqədə aşağıdakı şəxslər iştirak edə bilərlər:

- Ali təhsil müəssisələrinin müəllim və tələbələri;
- Tədqiqat institutlarının əməkdaşları;
- Müstəqil tədqiqatçılar;
- Dövlət və özəl sektor nümayəndələri;
- Digər maraqlı fiziki şəxslər.

4.2. Layihənin əsas müəllifi müsabiqə ilində 18–35 yaş aralığında olmalıdır.

4.3. Həmmüəlliflər üçün yaş məhdudiyyəti tətbiq edilmir.

4.4. Bir iştirakçı yalnız bir layihə ilə əsas müəllif qismində çıxış edə bilər (Təşkilatçının ayrıca qərarı ilə istisnalar mümkündür).

4.5. Layihənin əsas müəllifi yalnız Azərbaycan vətəndaşı ola bilər.

4.6. Həmmüəlliflər üçün vətəndaşlıq məhdudiyyəti tətbiq edilmir.

## 5. Qeydiyyat və seçim

5.1. Müsabiqədə iştirak etmək istəyən şəxslər Təşkilatçının rəsmi internet səhifəsində yerləşdirilmiş elektron formanı doldurmaqla qeydiyyatdan keçirlər.

5.2. Qeydiyyat üçün son tarix: 15 iyun 2026-cı il.

5.3. Müraciətlər Təşkilatçı tərəfindən ilkin yoxlamadan keçirilir və uyğun hesab edildiyi halda iştirakçıya təsdiq məktubu göndərilir.

5.4. Qeydiyyatı təsdiqlənmiş iştirakçılara aşağıdakılar təqdim olunur:

- Təsdiq məktubu;
- Mövcud peyk təsvirləri (Məhsul);
- Hesabat (layihə təqdimatı) forması;

- Texniki təlimat və ya izahatlar (olduğu halda).

5.5. İştirakçılara Təşkilatçı tərəfindən əvvəlcədən müəyyən edilmiş şəhər ərazilərindən biri seçim əsasında təqdim edilə bilər.

## 6. Peyk məlumatlarının təqdim edilməsi və istifadəsi

6.1. Peyk məlumatları iştirakçılara əvəzsiz əsaslarla təqdim edilir.

6.2. Məhsul yalnız elmi-tədqiqat və Müsabiqə çərçivəsində layihənin hazırlanması məqsədləri üçün istifadə olunmalıdır.

6.3. İştirakçı aşağıdakı hərəkətləri etmək hüququna malikdir (yalnız bu Qaydaların tələbləri çərçivəsində):

- Məhsulun zəruri sayda surətini çıxarmaq;
- Məhsulu fərdi kompüterlərə və lokal şəbəkəyə yükləmək;
- Məhsul əsasında VAP və törəmə məhsullar hazırlamaq;
- Nəticələri elmi jurnallarda dərc etmək və elmi tədbirlərdə (konfrans, simpozium, müdafiə və s.) təqdim etmək;
- Məhsuldan məhdud çıxarışları (preview və s.) yalnız layihə üzrə təqdimat materiallarında, Məhsulun mənbəyini açıq göstərməklə istifadə etmək.

## 7. Qadağalar

7.1. İştirakçı aşağıdakıları etməməlidir:

- Məhsulu, VAP-ı və/və ya törəmə məhsulları üçüncü şəxslərə əvəzsiz və ya ödənişli əsaslarla ötürmək, yaymaq və ya açıqlamaq;
- Məhsulu kommersiya məqsədləri, əməliyyat idarəetməsi və ya hər hansı idarəçilik məqsədi üçün istifadə etmək;
- Məhsulu (orijinal və ya tərcümə edilmiş formada) açıq internet resurslarında və kütləvi informasiya vasitələrində yerləşdirmək;
- Məhsulu Azərbaycan Respublikasının hüdudlarından kənara kağız və ya elektron vasitələrlə ötürmək;

- Məhsul üzərində mövcud müəlliflik və mülkiyyət qeydlərini dəyişmək və ya çıxarmaq;
- Məhsuldan hərbi, təhlükəsizlik və ya nişanalma/təlim/simulyasiya sistemlərində istifadə etmək;
- Bu Qaydalarda açıq icazə verilməyən hər hansı digər istifadəni həyata keçirmək.

## 8. Layihənin hazırlanması və təqdim edilməsi

8.1. İştirakçı layihəsini və yekun hesabatını 31 avqust 2026-cı il tarixədək qiymətləndirmə üçün təqdim etməlidir.

8.2. Hesabat elektron formatda təqdim olunur. Təşkilatçı zərurət yarandıqda təqdimetmə kanalını (elektron poçt, onlayn sistem və s.) müəyyən edə bilər.

8.3. Əsaslandırılmış hallarda (fors-major və ya digər üzrlü səbəblər olduqda) Təşkilatçı müddəti məhdud şəkildə uzada bilər.

## 9. Qiymətləndirmə

9.1. Layihələr Təşkilatçı tərəfindən formalaşdırılmış münsiflər heyəti tərəfindən qiymətləndirilir.

9.2. Qiymətləndirmə aşağıdakı meyarlar əsasında aparılır:

- Layihədə peyk təsvirlərinin istifadə dərəcəsi;
- Mövzuya uyğunluq və təklif olunan problemin aktuallığı;
- Elmi-tədqiqat yönümlülüyü;
- Layihənin innovativliyi;
- Kommersiya yönümlülüyü və nəticələrin real hallərə çevrilmə imkanı;
- Hesabatın strukturu və tərtibat keyfiyyəti.

9.3. Münsiflər heyətinin qərarı yekun hesab olunur və nəticələr protokollaşdırılır.

## 10. Mükafatlandırma

10.1. Qaliblər aşağıdakı qaydada mükafatlandırılır:

- 1-ci yer — 5000 AZN;
- 2-ci yer — 3000 AZN;

- 3-cü yer — 1500 AZN.

10.2. Təşkilatçı əlavə nominasiyalar üzrə mükafatlar təsis edə bilər.

10.3. Təşkilatçı daxili prosedurlarına uyğun olaraq seçim etməkdə azaddır və seçim prosesinin nəticəsinə görə Müsabiqə iştirakçıları qarşısında məsuliyyət daşımır.

## 11. Əqli mülkiyyət

11.1. Peyk məlumatları (Məhsul) Azərkosmosun mülkiyyətində qalır.

11.2. İştirakçı öz layihəsi üzrə müəlliflik hüquqlarını saxlayır, lakin Müsabiqədə iştirak iştirakçıya bu Qaydalarla nəzərdə tutulmayan əlavə hüquqlar vermir.

11.3. İştirakçı öz layihəsinin əqli mülkiyyət toxunulmazlığını (patent, müəlliflik hüququnun qeydiyyatı və s.) zərurət olduqda özü təmin edir.

11.4. Müsabiqədə iştirak əmək münasibətlərinin yaranmasına səbəb olmur.

## 12. Fərdi məlumatların qorunması

12.1. İştirakçı Müsabiqədə qeydiyyatdan keçərkən tələb olunan fərdi məlumatları könüllü olaraq təqdim edir.

12.2. Təşkilatçı təqdim edilmiş fərdi məlumatların məxfiliyinin qorunmasını, təhlükəsiz saxlanmasını və yalnız Müsabiqənin təşkili və keçirilməsi məqsədləri üçün işlənməsini təmin edir.

12.3. Fərdi məlumatların toplanması, işlənməsi, saxlanması və mühafizəsi Azərbaycan Respublikasının "Fərdi məlumatlar haqqında" Qanununa, habelə tətbiq olunan beynəlxalq məlumatların qorunması prinsiplərinə və normalarına uyğun olaraq həyata keçirilir.

12.4. Təşkilatçı fərdi məlumatları qanunvericiliklə nəzərdə tutulmuş hallar istisna olmaqla üçüncü şəxslərə ötürmür.

12.5. İştirakçı qeydiyyatdan keçməklə fərdi məlumatlarının bu Qaydalara uyğun işlənməsinə razılıq verdiyini təsdiq edir.

## 13. Məxfilik və məsuliyyət

13.1. Təşkilatçı və iştirakçılar layihələrə aid məlumatların məxfiliyini (seçilmiş təklifin adı və onun haqqında məlumatlar daxil olmaqla) Müsabiqənin nəticələri elan edilənədək qoruyurlar.

13.2. İştirakçı təqdim etdiyi məlumatların düzgünlüyünə və layihənin vaxtında yerinə yetirilməsinə görə məsuliyyət daşıyır.

13.3. Təşkilatçı Müsabiqə iştirakçısının təklifinin ictimaiyyətə açıqlanması nəticəsində yarana biləcək ziyana görə qanunvericiliklə nəzərdə tutulmuş hallar istisna olmaqla məsuliyyət daşımır.

## 14. Yekun müddəalar

14.1. Təşkilatçı istənilən vaxt bu Qaydaları dəyişmək, Müsabiqəyə xitam vermək və ya Müsabiqəni ləğv etmək hüququnu özündə saxlayır.

14.2. Bu Qaydalar Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun tənzimlənir.

14.3. Bu Qaydalar Təşkilatçının rəsmi internet səhifəsində dərc edildiyi andan qüvvəyə minir.

## 15. Əlaqə

Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos)

Üzeyir Hacıbəyli küçəsi 72, Bakı, Azərbaycan, AZ1000

Tel: +994 12 310 00 55

E-poçt: eoscience@azercosmos.az

Veb: www.azercosmos.az